# 500 milyondan çox insan Bakını izlədi

## "Formula-1"in Azərbaycan nümunəsi yaranıb

**Son illər beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunun yüksəldiyini sübuta yetirir. Azərbaycanın yüksək təşəbbüskarlığı ilə Bakıda təşkil edilən və edilməsi planlaşdırılan çoxsaylı mötəbər beynəlxalq tədbirlər paytaxtımızı həm də regionun diplomatik mərkəzinə çevirib. Hələ 12 il əvvəl "Eurovision-2012" kimi möhtəşəm musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan başqa mötəbər idman tədbirlərinə - "Bakı-2015" I Avropa Oyunlarına və "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına, futbol üzrə "Avro-2020"nin 4 matçına uğurla evsahibliyi etdi.**







Bunlara paralel olaraq 8 ildir Azərbaycan dünyanın bir nömrəli avtomobil yarışına - "Formula-1"ə uğurla evsahibliyi edərək nümunə göstərməkdə davam edir. Sentyabrın 13-15-də dünyanın diqqəti yenidən Azərbaycana yönəldi. "Formula-1" Azərbaycan Qran-prisini 500 milyondan artıq tamaşaçı izlədi.

"Formula-1"in dünyada çox böyük azarkeşləri var. Bu, nəzərə alınaraq Bakı Şəhər Halqasında da tamaşaçıların yarışı canlı və təhlükəsiz izləmələri üçün hər cür imkan yaradılmışdı. Bakı Şəhər Halqasının müxtəlif yerlərində tamaşaçı tribunaları quraşdırılmışdı. Bu mötəbər yarışın yüksək səviyyədə işıqlandırılmasına təcrübəli müxbir və fotomüxbirlər cəlb edilmişdi.

Beləliklə, ən böyük informasiya alyansları, eləcə də 200-ə yaxın ölkənin xəbər agentlikləri Bakıda keçirilən "Formula-1" yarışı barədə xəbərləri dünyaya yaydılar.

Öz nüfuzuna görə dünyanın ən baxımlı idman növlərindən, maraqlı mübarizələrdən sayılan "F1" yarışlarına qatılmaq isə heç də asan başa gəlmir. Sürücülər Qran-pri turnirində çıxış etmək üçün super lisenziya almalıdırlar ki, bu da hər pilota verilmir. Yalnız digər önəmli yarışlarda uğur qazanan və öz komandası ilə normal münasibət saxlayan, FİA qaydalarına əməl edən sürücülər Qran-pri turnirinə qatıla bilərlər.

1950-ci ildə keçirilən "F1" üzrə ilk dünya çempionatında azarkeşlər İkinci Dünya müharibəsindən əvvəl istehsal olunan avtomobillərin yarışını izlədilər. Bu bolidlərin mühərriki öndə, təkərləri isə enzis və dişli idi. Avtomobillər 1,5 litrlik kompressor və ya 4,5 litrlik normal aspirat mühərriklə işləyirdi. Hər il istər yarış qaydalarında, istərsə də avtomobillərin texniki göstəricilərində və dizaynında müxtəlif dəyişikliklər edilib. Mühərrikin həcmi, avtomobilin sürəti və təkərlər müasir dövrün tələblərinə uyğun dəfələrlə yenilənib.

Komandalar və konstruktorların yenilik, sürət və qələbə uğrunda mübarizəsini FİA tənzimləyir. Beynəlxalq Avtomobil Federasiyası yarış qaydalarında müəyyən dəyişikliklər etməklə turnirin daha şəffaf və sağlam keçirilməsini, həmçinin pilotların təhlükəsizliyini təmin edir.

Beləliklə, Bakıda, sadəcə, möhtəşəm idman yarışı keçirilmədi. Həmçinin bu yarış vasitəsilə paytaxtımızı və ümumilikdə milli mədəniyyətimizi dünya ictimaiyyətinə növbəti dəfə təqdim etdik. Azərbaycanın dünyada daha geniş səviyyədə tanıdılmasında bu tədbirin əhəmiyyəti çox böyükdür.

Modern üslubda hazırlanan installyasiya şəhərin qonaqlarına və sakinlərinə "Formula-1"in builki mövsümünün 17-ci yarışı olan Azərbaycan Qran-prisinin başlamasına qalan vaxtı göstərdi. Və həmin an yetişdi. Dünyanın ən güclü 20 pilotu Azərbaycan Qran-prisini qalib başa vurmaq üçün gərgin mübarizə apardılar. Yekunda "McLaren"in avstraliyalı pilotu Oskar Piastri birinci oldu. Şarl Lekler ("Ferrari") ikinci, Corc Rassell ("Mercedes") üçüncü sırada qərarlaşdılar.

Ümumiyyətlə, qaliblərə təqdim olunan kubok milli üslubda dizaynı ilə "F1" azarkeşlərinin diqqətini cəlb etdi. Rəsmi mükafat Qarabağ xalçalarının xarakterik naxışlarından ilham alaraq hazırlanmışdı. Bu naxışlar həm zövq oxşayan gözəllik, həm də ölkənin köklü sənət və sənətkarlıq ənənələrini yaşatdığına işarədir. Dizaynda istifadə olunan alov Azərbaycanın "Odlar Yurdu" kimi tanındığını və ölkəmizin idman sahəsindəki yüksək nüfuzunu vurğulayır. Milli naxışlar və elementlər yarışın saf gümüşdən hazırlanmış hər üç kubokunun üzərində mövcuddur.

Məlumat üçün qeyd edək ki, yarışların keçirildiyi şəhər treki "Bakı Şəhər Halqası" (BŞH) adlanır və uzunluğuna görə dünyada ikincidir. 20 müxtəlif çətinlikli döngəsi və 6 kilometrlik uzunluğu ilə 51 dövrədə tamamlanıb. Şəhər treki pilotlardan xüsusi dəqiqlik tələb edən İçərişəhər ətrafı dar yoxuş hissəsi, inanılmaz sürət əldə etməyə imkan verən 2,2 km dənizkənarı hamar hissəsi və digər özəllikləri ilə yarışı canlı olaraq tribunalardan və ya televiziya qarşısında izləyən "Formula-1" azarkeşləri üçün əsrarəngiz bir şouya çevirdi.

Yarış zamanı "Formula-1" pilotları UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan İçərişəhər tarixi-memarlıq qoruğunu, şəhərin müasir göydələnlərini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən Bakının ecazkar simasını gördülər.

Layihənin müəllifi bütün müasir "Formula-1" treklərinin memarı olan Herman Tilkedir. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əksi istiqamətində oldu. Ümumilikdə 30 minə yaxın tamaşaçı eyni anda yarışı tribunalardan canlı izləyə bildi.

Start və finiş xətti Azadlıq meydanında oldu. Həmçinin burada "Formula-1" Paddok klubu, komandaların boksları və pit-leyn quruldu. 19 və 20-ci döngələrdən sonra 1500 metrlik məsafədə 340 km/saat sürət yığacaq pilotları kəskin döngə gözlədi. 90 dərəcəli sol döngədən sonra pilotlar 300 metrlik məsafədə görkəmli rus şairi A.S.Puşkinin adını daşıyan küçədən keçdilər. 2-ci döngədən sonra "Formula-1" bolidlərini trekin Xaqani küçəsi boyu 1 km uzanan və uzunluğuna görə ikinci böyük sürətlənmə xətti sayılan hissəsi gözləyirdi. Sonra pilotlar yenidən kəskin döngə ilə qarşılaşdılar.

Beləliklə, sadəcə, Cənubi Qafqazın deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınan Azərbaycan "Formula-1" ilə uğur estafetini növbəti dəfə davam etdirdi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 19 sentyabr (№204).- S. 16.